Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

**KİVDF**

**Layihənin istiqaməti: "İctimai və dövlət maraqları"**

## İsa Həbibbəyli - 70

# Milli ədəbi-nəzəri düşüncənin öncülü

## Və ya ədəbi prosesin poeziyası və poetikası

**(Dördüncü yazı)**

*Çağdaş nəzəri-estetik fikrimizin korifeyi, akademik İsa Həbibbəylinin 50 illik zəngin və çoxşaxəli yaradıcılığını bir neçə mərhələyə bölmək olar. 70-80-ci illəri özündə ehtiva edən birinci mərhələnin özülündə həmin dövrün qabaqcıl və demokratik təmayüllü ədəbi-nəzəri axtarışlarının üzvi hissəsini təşkil edən romantizmşünaslıq sahəsindəki tədqiqatlar dayanır. Özünəqədərki ədəbiyyatşünaslığın və ustad ədəbiyyatşünasların XX yüzil ədəbiyyatı, xüsusən, romantik poeziya və dramaturgiya sahəsindəki araşdırmalarını davam və inkişaf etdirən gənc, döyüşkən alim, nəhayət, bu sahədəki elmi axtarış və yeniliklərini ümumiləşdirib, ədəbi ictimaiyyətə təqdim edir. 80-ci illərin birinci yarısında işıq üzü görən "Romantik lirikanın imkanları" kitabı cavan və romantizmşünas alimin sabiq Sovet İttifaqı imperiyasının hələ də kəsərdən düşmədiyi bir vaxtda, Hadiyə, Cavidə, Cavada və romantizmə düşmənçilikdən əl çəkilmədiyi, qadağalar və qətliamların hələ də köhnəlmədiyi bir zamanda cəmiyyətimizə, millətimizə, elm dünyasına ilk və sanballı töhfəsi idi. Zatən, yaxın gələcəyin böyük Mirzə Cəlilşünası və mahir realizmşünası şəhid şairlərimiz Hadi, Cavid və Cavad romantizminin mürəkkəb rəmzlər, bədii-fəlsəfi metaforalar və işarələr dünyasından realizmin əzəmətli və sərt həqiqətlər yoluna çıxmağı hədəfə almışdı. Və Azərbaycan elmində akademik İsa Həbibbəyli epoxasının təməl daşları qoyulurdu...*

Çağdaş nəzəri-estetik fikrimizin korifeyi, akademik İsa Həbibbəylinin 50 illik zəngin və çoxşaxəli yaradıcılığını bir neçə mərhələyə bölmək olar. 70-80-ci illəri özündə ehtiva edən birinci mərhələnin özülündə həmin dövrün qabaqcıl və demokratik təmayüllü ədəbi-nəzəri axtarışlarının üzvi hissəsini təşkil edən romantizmşünaslıq sahəsindəki tədqiqatlar dayanır. Özünəqədərki ədəbiyyatşünaslığın və ustad ədəbiyyatşünasların XX yüzil ədəbiyyatı, xüsusən, romantik poeziya və dramaturgiya sahəsindəki araşdırmalarını davam və inkişaf etdirən gənc, döyüşkən alim, nəhayət, bu sahədəki elmi axtarış və yeniliklərini ümumiləşdirib, ədəbi ictimaiyyətə təqdim edir. 80-ci illərin birinci yarısında işıq üzü görən "Romantik lirikanın imkanları" kitabı cavan və romantizmşünas alimin sabiq Sovet İttifaqı imperiyasının hələ də kəsərdən düşmədiyi bir vaxtda, Hadiyə, Cavidə, Cavada və romantizmə düşmənçilikdən əl çəkilmədiyi, qadağalar və qətliamların hələ də köhnəlmədiyi bir zamanda cəmiyyətimizə, millətimizə, elm dünyasına ilk və sanballı töhfəsi idi. Zatən, yaxın gələcəyin böyük Mirzə Cəlilşünası və mahir realizmşünası şəhid şairlərimiz Hadi, Cavid və Cavad romantizminin mürəkkəb rəmzlər, bədii-fəlsəfi metaforalar və işarələr dünyasından realizmin əzəmətli və sərt həqiqətlər yoluna çıxmağı hədəfə almışdı. Və Azərbaycan elmində akademik İsa Həbibbəyli epoxasının təməl daşları qoyulurdu...

Müstəqillik dövrü Azərbaycan ədəbi tənqidinə və ədəbiyyatşünaslığına ciddi töhfələr verən akademik İsa Həbibbəyli yaradıcılığında "Bütün yönləri ilə yaradıcı" (Bak, 2014) kitabının xüsusi yeri var. Tanınmış şair Rəşad Məcidin poeziyasının təhlilinə həsr olunmuş bu tədqiqat, bir çox məziyyətləri ilə diqqəti çəkir. Görkəmli yazarın yaradıcılığının çoxcəhətliliyini ayrıca vurğulayan alim, onun poeziya sahəsindəki xidmətlərini xüsusi qeyd edir: "Rəşad Məcid tam orijinal bir şairdir. Müstəqillik dövrü Azərbaycan şeirinin yaradıcıları sırasında onun özünəməxsus görkəmli yeri vardır. Rəşad Məcidin şeirləri mövzu, janr, üslub-yanaşma, bədii təsvir vasitələri etibarı ilə bənzərsizdir". İsa Həbibbəyli ədəbi tənqidinin özünəməxsus estetik keyfiyyətlərindən biri, onun həmişə sənətkar yaradıcılığındakı bədiiliyin sirlərini açmağa can atması, xüsusən, poetik əsərləri təhlil edərkən onların mahiyyətindəki lirizmi və şeiriyyəti kəşf edib üzə çıxarmaqdan ibarətdir. Bunun üçün isə tədqiqatçıdan son dərəcə yüksək elmi-nəzəri səviyyə ilə bərabər, həm də zəngin mənəviyyat və əsl şairanə qəlb tələb olunur. Onların vəhdəti və sintezi olmayanda şeiri bütün çalarları ilə duymaq və dərk etmək, poeziya əsərini kəşf etmək mümkün olmur. Maraqlıdır ki, İsa Həbibbəylinin klassik və romantik lirikadan bəhs edən məqalələrində də, müasir poetik proses haqqındakı yazılarında da bu ədəbi-estetik keyfiyyət və tendensiya bariz surətdə nəzərə çarpır. Rəşad Məcid poeziyasındakı lirik-romantik ovqatın təbiətini və cazibəsini həssaslıqla duyan müəllif, onu şair yaradıcılığının əsas estetik əlamətlərindən və keyfiyyətlərindən biri kimi vurğulayır: "Rəşad Məcidini lirikası, içərisində olduğu cəmiyyətlə və doğma təbiətlə birgə nəfəs alan cavan bir qəlbin həyata şairanə şəkildə vurğunluğudur. Onun şeirlərində dünya da, vətən də, ictimai motivlər də, milli duyğular da, sevgi də, təbiət də, tale də öz şeiriyyətini təqdim edir. Mövzusundan asılı olmayaraq, Rəşad Məcidin şeirləri daşdan süzülüb keçən bulaq suyu qədər saf, təmiz və təbiidir". Tənqidçi, şairin poeziyasının estetik məzmunu ilə bədii quruluşu və qiyafəsi arasında uyğunluğa da diqqəti çəkir. Şeiriyyətin doğuluşunun mühüm sirlərindən biri də məhz bu uyğunluq və poetik həmahəngliklərlə bağlıdır: "O, cəmiyyətə də, təbiətə də, tarixə də, müasir həyata da şeirin gözü ilə baxır. Onun hər misrasının "göyərçin qanadı" kimi bənzərsiz obrazlı görkəmi, hər bəndinin bayatılarda olduğu kimi lirik-fəlsəfi mənası vardır. Rəşad Məcidin şeirləri həyata şairanə baxışın özünəməxsus ifadəsidir". Bu mülahizələr yenidir. R.Məcid haqqında yazanlar şair lirikasının bu məziyyətlərinə toxunmayıblar. Müəllif bir tərəfdən R.Məcid yaradıcılığındakı romantik ovqatın səbəblərini və sirlərini açır, ikinci tərəfdən isə onun şeirlərindəki poetik strukturun özəlliyinə, bəndlərin sırası və düzümündəki, daxili əlaqələrindəki təkrarsızlığa diqqəti çəkir. Şairin bir çox şeirlərindəki özünəməxsus poetik kompozisiyanı və bəndlərin daxili poetik harmoniyanı zərrəcə pozmadan zərif və lirik müstəqilliyi, qəribə muxtariyyəti alimin həssas nəzərlərindən qaçmamışdır.



Akademik İsa Həbibbəyli toxunduğu və araşdırdığı məsələlərin, mövzu və problemlərin xarakterindən və mahiyyətindən asılı olmayaraq, həmişə hərtərəfli və fundamental yanaşmaya üstünlük verir. Alimin bütün tədqiqatlarında bu elmi-estetik yanaşma qabarıq surətdə nəzərə çarpır. R.Məcid yaradıcılığından bəhs edən kitabında da müəllif öz tədqiqat üsuluna sadiq qalmış, müraciət etdiyi mövzunu geniş müstəvidə nəzərdən keçirməyi lazım bilmişdir. Bu cəhətdən R.Məcid poeziyasının ədəbi-estetik mənbələri, genezisi və təşəkkülü ilə bağlı mülahizələr xüsusilə diqqətəlayiqdir. Böyük rus şairi Osip Mandelştam poeziya haqqındakı düşüncələrini irəli sürərkən çox gözəl bir fikri ortaya atır; tənqidçi, şair yaradıcılığının bütün əlamət və xüsusiyyətlərini əhatə etməyə bilər, amma onun mənbəyini, haradan gəlib çıxdığını və necə peyda olduğunu söyləməyə borcludur. Etiraf etməliyik ki, haqqında yazdığımız bütün şairlərdən və poeziya hadisələrindən bəhs edərkən biz bu tələbə və həqiqətə həmişə əməl etmirik. Bu nöqteyi-nəzərdən "Bütün yönləri ilə yaradıcı" kitabı nümunəvi və ibrətamizdir. Aşağıdakı mülahizələr elmi-estetik fikrin bu əzəli qaydasına və Osip Mandelştamın israrla söylədiyi qanunauyğunluğa yüksək səviyyədə verilmiş cavabdır: "Göründüyü kimi, Rəşad Məcidin səksəninci illərə aid şeirlərində xalq şairi Məmməd Araz poeziyasının ruhu, yaxşı mənada təsiri sezilir. İlk dövr şeirlərinin bəzilərində Məmməd Arazdan gəlmiş tanış ovqatlar və intonasiya müşahidə olunur. Bu qəbildən olan "İndən belə", "Yazığım gəlir", "Necə unudum", "Bilmədim" şeirlərində Məmməd Araz notları hiss olunsa da, Rəşad Məcid həm də öz sözünü deməyə çalışmışdır". Kitabda qeyd etdiyimiz proses, sadəcə bir fakt kimi qeyd olunmur. Müəllif şagirdlər və ustadlar arasında təbii şəkildə baş verən bu mənəvi əlaqələrin özünəməxsusluğuna və mahiyyətinə varır: "Bədii yaradıcılığa başlayan qələm sahiblərinin, o cümlədən də Rəşad Məcidin qəlbinə yatan, baxışlarını ovsunlayan hər hansı bir şairdən, məsələn, Məmməd Arazdan təsirlənməsi təbii bir prosesdir. Məmməd Arazın da yazdığı kimi, Rəşad Məcid onun mühitinə daha yaxın olmuş, "gözünün qabağında" şair kimi yetişib formalaşmışdır" ("Bütün yönləri ilə yaradıcı", s. 10). Alim öz mülahizələrini bu faktı qeyd etməklə məhdudlaşdırmır. Bu hadisəyə daha geniş miqyasda və müstəvidə nəzər salır. İki şairin yaradıcılıq əlaqələrindən bəhs edərkən poetik nəsillərin təmas və ünsiyyətinə keçid edir. "Şübhəsiz ki, Rəşad Məcidin ilk dövr şeir yaradıcılığında ədəbiyyatımızın başqa görkəmli nümayəndələrinin, məsələn, Əli Kərimin də izini görmək mümkündür. Hətta Rəşad Məcidin müasiri olan, yaradıcılığına rəğbətlə yanaşdığı Ramiz Rövşənə yaxın misralarına da rast gəlmək olar. Lakin nəzərə almaq lazımdır ki, bədii yaradıcılıqda əsas məsələ cavan yaradıcı şəxsin bu təbii prosesi keçib daha tez özünü ifadə edə bilməsindən ibarətdir. Və Rəşad Məcid də böyük ədəbiyyata gedən yolun başlanğıc mərhələsinin öyrənmə-təsirlənmə dövrünü yaşayaraq, keçərək, qısa müddət ərzində şeirdə öz sözünü deməyə bacarmışdır". ("Bütün yönləri ilə yaradıcı", s. 11).

Akademik İsa Həbibbəyli təkcə R.Məcidin erkən poeziyasını deyil, onun bütün yaradıcılığını böyük ədəbiyyat müstəvisində nəzərdən keçirir. Alimin şair haqqında düşüncə və fikirlərinin bu qədər sanballı və inandırıcı olmasının əsas səbəblərindən biri budur. Müqayisəli-tipoloji tədqiqat üsulunun imkanları çərçivəsində R.Məcid yaradıcılığı bir tərəfdən altmışıncılar və yetmişincilərin poetik təcrübəsi kontekstində, ikinci tərəfdən isə müstəqillik dövrü ədəbiyyatının zəminində və axarında işıqlandırılır. Bu yanaşmalar və müxtəlif ictimai-estetik nöqtələrdən baxışlar şair yaradıcılığının poetik simasını və qiyafəsini çoxtərəfli dəyərləndirməyə şərait yaradır: "Bu qəbildən olan ədəbiyyat, o cümlədən vətəndaşlıq poeziyası müstəqillik dövrü Azərbaycan ədəbiyyatının böyük başlanğıcıdır. R.Məcidin şeirləri isə təpədən-dırnağa qədər həyat və insan haqqında lirik düşüncələrdən yoğurulmuş təbii bir daxili poetik monoloqdur. R.Məcidin zərif və dərin şeiriyyəti ilə müqayisədə hətta monoloq məfhumu da müəyyən dərəcədə pafoslu səslənir. Bu şeirlər dünyadan, həyatdan və insandan danışan işıqlı və obrazlı düşüncələrdən yoğurulmuşdur".

Kitabdakı poeziya haqqında söylənən mühüm fikir və mülahizələr ümumiləşdirilmə siqləti və pafosu nöqteyi-nəzərindən də diqqəti çəkir. Məsələn, müəllifin aşağıdakı fikri R.Məcid haqqında yuxarıdakı düşüncələrin ümumi yekunu və nəticəsi kimi səslənir: "Fikrimcə, bu mənada R.Məcidin lirikası müasir Azərbaycan şeirinin inkişafında fərqli hadisədir. R.Məcid şeirlərində bütün hallarda, o cümlədən lirik duyğularını ictimailəşdirəndə də obrazlı düşüncənin təbiiliyini və səmimiliyini, lirizmi qoruyub saxlayır. Ona görədir ki, Rəşad Məcidin lirik qəhrəmanı da həmin işığın, milli-mənəvi varlığın real və təbii bir daşıyıcısıdır" . Müasir poeziyamızda və xüsusən, poetik gəncliyin yaradıcılığında o qədər də dəbdə olmayan vətəndaşlıq motivlərinin səksəncilərin, xüsusən də, R.Məcidin poetik axtarışlarında aparıcı mövqeyə malik olmasını ayrıca vurğulayan müəllif, bu estetik keyfiyyətin şairin poetik dünyasını səciyyələndirdiyini qeyd edir. Altmışıncılardan, yetmişincilərdən və səksənincilərdən, onların qəlbindən və poetik dünyasından keçib gələn bu işığın R.Məcid şeiriyyətindəki cazibəsinə diqqəti yönəldən alim yazır: "Rəşad Məcid şeirinin qayəsində "Arazlaşan, Kürləşən Vətənin" bütövlüyü və qüdrəti, "At belində, döşündə saz, əlində qılınc" nər oğulların daim ayıq-sayıq olub, ölkənin keşiyini çəkməsinin müqəddəsliyi, obanın, elin tarixi yaddaşı olan Cıdır düzünün timsalında torpağımızın bölünməzliyinin qorunması ideyaları müsəlləh əsgər qüruru ilə dayanır. Rəşad Məcidin vətənpərvərlik mövzusunda yazdığı şeirlər şair-vətəndaş mövqeyinin poetik ifadəsidir". ("Bütün yönləri ilə yaradıcı", s. 25).

Akademik İsa Həbibbəyli "Bütün yönləri ilə yaradıcı" kitabında bir şair yaradıcılığından bəhs edərək poeziyamızın və ümumən, milli-bədii dəyərlərimizin yarım əsrlik inkişaf dövrü haqqında tam və dolğun təsəvvür yaratmağa nail olmuşdur. Şairin, demək olar ki, bütün yaradıcılığını əhatə edən bu tədqiqatda R.Məcidin son dövrlər yaradıcılığının zirvəsi sayılan "Roman" poemasından ("Roman" və poetikası"), şairin özünəməxsus nəsrindən, publisistikasından və esselərindən də ətraflı bəhs edilmişdir. Amma biz ustad ədəbiyyatşünas və tənqidçinin poeziya konsepsiyasından və şeirin poetikası ilə bağlı mülahizələrindən bəhs etdiyimizə görə, müəllifin bu yöndəki təhlil və düşüncələrinə münasibət bildirməklə kifayətləndik.

**Yaşar Qasımbəyli,**
**filologiya elmləri doktoru,**
**professor**

**Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.**